

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 178 (21.839)

21 sentyabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 20-də Nyu-Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxış edib.

Prezident İlham Əliyev bildirib ki, Ermənistan 24 ildir, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

* * *

Sentyabrın 19-da Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və xanımının adından BMT-nin Baş Assambleyasının 72-ci sessiyası ilə əlaqədar qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəbulda iştirak ediblər.



## Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binası və "Şahbuz" yarımstansiyası istifadəyə verilib

Muxtar respublikada energetiklər üçün müasir iş şəraitinin yaradılması, elektrik enerjisinin istehlakçılara dayanıqlı və keyfiyyətli çatdırılması sahəsində ardıcıl tədbirlər görülür. Elektrik şəbəkələri üçün yeni inzibati binalar tikilir, müasir yarımstansiyalar qurulur.





Sentyabrın 20-də Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binası və "Şahbuz" yarımstansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev tədbirdə çıxış edərək demişdir ki, Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün yeni tikilmiş müasir üslublu ikimərtəbəli binada energetiklərə hərtərəfli iş şəraiti yaradılmışdır. Yeni inzibati binanın və yarımstansiyanın tikilib-quraşdırılması Şahbuz Rayon Elektrik Şəbəkəsi işçilərinin iş şəraitini və istehlakçıların elektrik enerjisi təchizatını xeyli yaxşılaşdırmışdır. Namiq Paşayev yaradılan şəraitə görə muxtar respublika energetikləri adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binasının və "Şahbuz" yarımstansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi və istifadəçiləri təbrik edərək demişdir: Hər bir ölkənin iqtisadi gücünün əsas göstəricilərindən biri də onun enerji asılılığının olmamasıdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycanda istehsal olunan elektrik enerjisi daxili tələbatı ödəməklə yanaşı, həm də qonşu ölkələrə satışı həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: Yeni elektrik stansiyalarının tikilməsi, elektroenergetika sisteminin müasirləşdirilməsi və enerji təhlükəsizliyinin təmin olunması ölkəmizin inkişafına xidmət edir. Çünki ölkəmizdə sənayenin, kənd təsərrüfatının və digər sahələrin inkişafı, əhalinin yaşayış səviyyəsinin yaxşılaşması və elektrik avadanlıqlarından istifadənin artması elektrik enerjisinə olan tələbatı da artırır. Muxtar respublikada da hər il elektrik enerjisindən istifadə artımla müşahidə olunur. Ona görə də yeni elektrik stansiyalarının tikilməsi, elektrik enerjisinin istehsalı və keyfiyyətli ötürülməsi diqqətdə saxlanılır. Son illər muxtar respublikada Günəş Elektrik Stansiyası istifadəyə verilmiş, bu il stansiyanın gücü daha 2 meqavat artırılmışdır.

Ali Məclisin Sədri demişdir: Elektrik enerjisini istehsal etməklə yanaşı, onun istehlakçılara keyfiyyətli çatdırılması da qarşıda duran əsas vəzifədir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada həm elektrik enerjisi istehsal olunur, həm də əhali keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunur. Şahbuz Rayon Elektrik Şəbəkəsi bu günə qədər uyğunlaşdırılmış binada fəaliyyət göstərirdi. Yarımstansiyadakı avadanlıqların istismar müddəti isə başa çatmışdı. Lakin bu gün istifadəyə verilən inzibati binada müasir iş şəraiti yaradılmış, yarımstansiyada yeni avadanlıqlar quraşdırılmış, iş prosesi tam avtomatlaşdırılmışdır. Eyni zamanda quraşdırılan yeni avadanlıqları istismar edən mütəxəssislər yetişmişdir.

Naxçıvanda su və günəş elektrik stansiyalarının, eləcə də yarımstansiyaların qurulması və istismarının, yüksək gərginlikli elektrik xətlərinin çəkilməsinin muxtar respublika energetikləri tərəfindən həyata keçirildiyini bildirən Ali Məclisin Sədri energetiklərə təşəkkür etmiş, onlara işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri yarımstansiyanın qurulmasında fərqlənənlərə hədiyyələr vermiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində 35/10 kilovoltluq "Şahbuz" yarımstansiyasının idarəetmə otağı, 35 və 10 kilovoltluq qapalı paylayıcı quruluşlar, əməliyyat briqadası üçün otaqlar və bufet yerləşir. İkinci mərtəbədə isə iş otaqları və iclas zalı vardır.

"Şahbuz" yarımstansiyasında hər birinin gücü 6,3 meqavolt-amper olan 2 ədəd yeni transformator, 3 idarəetmə paneli, 5 ədəd 35 kilovoltluq, 11 ədəd 10 kilovoltluq elektrik verilişi xətləri üçün eleqaz açarlı müasir hücrələr, eləcə də rele mühafizəsi və avtomatika qurğuları quraşdırılmışdır. Yarımstansiyanın tikintisi zamanı 35 və 10 kilovoltluq elektrik verilişi xətlərinin yeri dəyişdirilmiş, bu məqsədlə 1 kilometrlik birdövrəli 35 kilovoltluq, 11 kilometrlik 10 kilovoltluq yeni xətlər çəkilmişdir. İnzibati binanın damında ümumi gücü 13 kilovatt olan 51 ədəd günəş paneli və şəbəkəyə birbaşa qoşulmuş 3 invertor quraşdırılmışdır. Bu da inzibati binanın elektrik enerjisi ilə etibarlı təminatına imkan verəcəkdir.

Binanın həyətində də abadlaşdırma işləri aparılmış, anbar binası tikilmişdir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması və işin keyfiyyətinin artırılması, elektrik enerjisinin itkisiz çatdırılması və qənaətlə istifadə olunması, eləcə də mütəxəssis hazırlığı barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik orqanlarının yaradılmasının 25-ci ildönümü qeyd olunub

Sentyabrın 20-də Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik orqanlarının yaradılmasının 25-ci ildönümü qeyd olunub.

Əvvəlcə tədbir iştirakçıları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini dərin ehtiramla yad edib, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Sonra tədbir Dövlət Təhlükəsizliyi Xidmətinin inzibati binasında davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında" 2017-ci il 19 sentyabr tarixli Sərəncamını oxuyub. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanları ilə təltif ediliblər.

Cəlil Rüstəmov tədbirdə çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikasının təhlükəsizlik orqanları 25 ildə mühüm inkişaf yolu keçib. Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və onun rayon şöbələrinin fəaliyyəti üçün lazımi şərait yaradılıb, müasir xidməti binalar istifadəyə verilib. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi 20 sentyabr 1992-ci il tarixli qərara əsasən Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 18 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əsasında muxtar respublikanın Dövlət Təhlükəsizliyi Xidməti yaradılıb. Bu fərmandan sonra Dövlət Təhlükəsizliyi Xidmətində aparılan islahatlar müasir dövrün təhdid və çağırışları nəzərə alınmaqla xidmətin səmərəli və çevik təşkil olunmasına təkan vermişdir. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti ölkəmizin və muxtar respublikanın maraqlarına qarşı yönəlmiş təhdidlərin vaxtında aşkar edilərək qabaqlayıcı tədbirlər görülməsi, dövlətçiliyin və təhlükəsizliyin qorunması üçün fəaliyyətini gücləndirir.

Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini, polkovnik Aləşrəf İbrahimov şəxsi heyəti yubiley münasibətilə təbrik edərək demişdir ki, bu gün xidmətin fəaliyyətinin səmərəli təşkili üçün ardıcıl tədbirlər həyata keçirilir. Xidmət yüksək dövlət qayğısı ilə əhatə olunub. Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları göstərilən qayğıdan və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da öz vəzifə borclarını uğurla yerinə yetirəcəklər.

Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları çıxış edərək təhlükəsizlik orqanlarının 25 ildə keçdiyi yoldan və onlara göstərilən qayğıdan danışıblar.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Fazil Ələkbərov tədbirdə çıxış edərək yubiley münasibətilə Xidmət əməkdaşlarını təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Dövlət təhlükəsizlik orqanlarında səmərəli fəaliyyətlərinə görə Ali Məclis Sədrinin sərəncamı ilə təltif olunan əməkdaşlara "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanları təqdim edilib. Bir qrup əməkdaşa isə növbəti rütbələr və pul mükafatı verilib, təşəkkür elan edilib.

Təltif olunanlar onlara göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını bildiriblər.

**"Şərq qapısı"**

*21 sentyabr Beynəlxalq Sülh Günüdür*

## Sülh insan hüquqlarının səmərəli təminatına xidmət edir

***Birləşmiş Millətlər Təşkilatı 1981-ci ildə 21 sentyabrın "Beynəlxalq Sülh Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Həmin tarixdən etibarən 21 sentyabr bütün dünyada "Beynəlxalq Sülh Günü" kimi qeyd olunur.***

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Ümumiyyətlə, sülh və sabitlik inkişafın təməlidir. Bu proses hər ölkədə və regionda onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf etdirilir.

Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, 1 milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş, minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirilmiş, təhsil və mədəniyyət ocaqlarımız, dini və tarixi abidələrimiz dağıdılmış, terrora məruz qalmışdır. Atəşkəs rejiminə baxmayaraq, bu proses bu gün də davam edir, uşaqlar, qadınlar, qocalar və bütövlükdə əhali uzun müddətdir ki, münaqişədən əziyyət çəkir.

Ulu öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, regionda sabitliyin yaranmasına nail olunmuşdur. Bu, dövlətimizin sülh arzusunun ifadəsi, həqiqi sülhün bərqərar olması üçün Vətəni hər cür müdaxilədən qoruyacaq və sülhün təminatı rolunda çıxış edəcək hərbi qüdrətə gedən yolun başlanğıcı idi. Ölkəmizdə atəşkəs əldə olunduqdan sonra ulu öndər beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində ardıcıl tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi üçün 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Ancaq işğalçı ölkə indiyədək beynəlxalq hüququn tələblərini pozaraq işğal siyasətini davam etdirir.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşü zamanı ümummilli liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuşdu. Ümummilli lider demişdir: ***"Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq".***

Azərbaycan xalqı hər zaman sülhsevər olmuşdur. Bunu onunla izah etmək olar ki, tarixən vətənimizdə azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri də mehribancasına yaşamış və hazırda da yaşayırlar. Ölkəmizin yüksək tolerantlığa sahib olması indi bir çox ölkələr üçün əsl nümunədir. Azərbaycanda yaşayan insanlar arasında milli və ya dini ayrı-seçkiliyə yol verilmir. Tolerantlıq, milli-etnik dözümlülük, sıx əməkdaşlıq, bərabər imkanlarla iştirak milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Yüzilliklər boyunca Azərbaycanda müxtəlif xalqlar vahid və mehriban bir ailə kimi yaşayaraq bir-birinin dininə, inancına hörmətlə yanaşmış və zəngin mədəni müxtəliflik qorunub saxlanmışdır.

Dahi şəxsiyyətin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edərək Cənubi Qafqazın həm iqtisadi, həm də hərbi baxımdan ən güclü ölkəsinə çevrilmişdir. ***"Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır"***, – deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artır, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünü tanıyırlar.

Azərbaycanda həyata keçirilən siyasətin, multikultural dəyərlərə verilən böyük önəmin nəticəsidir ki, 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə məhz Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir. Buna uyğun olaraq 24 iyul 2015-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalanmış və 2016-cı ilin 25-27 aprel tarixlərində forum keçirilmişdir.

21 sentyabr – Beynəlxalq Sülh Günü dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunur. Təcavüzkar Ermənistan tərəfindən sülhün və sabitliyin pozulması səbəbindən muxtar respublikamız 25 ildən artıqdır ki, blokada vəziyyətində yaşayır. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan ictimai-siyasi sabitlik və əmin-amanlıq şəraitində inkişaf edir. Aparılan düzgün siyasətin nəticəsidir ki, artıq Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası planetin ən təhlükəsiz guşələrindən biridir.

2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilməsi sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür.

*Bu gün torpaqlarımızı işğaldan azad etməyə qadir güclü ordumuz və inkişaf etməkdə olan müdafiə sənayemiz mövcuddur. Lakin buna baxmayaraq, Azərbaycan dövləti işğal altındakı torpaqlarımızın sülh yolu ilə azad edilməsinin tərəfdarı olduğunu dəfələrlə bəyan etmiş, sülhməramlı siyasətə sadiq qalmışdır. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir.*

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

*Ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi Naxçıvan Muxtar Respublikasında diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın coğrafi mövqeyi, relyefi, təbii iqlim və torpaq xüsusiyyətləri, təbii su potensialı nəzərə alınaraq ən mühüm ekoloji tədbir kimi yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirlərinə diqqət yetirilir, xüsusi mühafizə olunan təbiət obyektləri yaradılır. Qeyd edək ki, ötən illərdə görülən işlər sayəsində muxtar respublikada xüsusi mühafizə olunan təbiət ərazilərinin coğrafiyası xeyli genişlənib.*

## Yaşıllıqlar ekoloji təhlükəsizliyin təminatıdır

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Ordubad rayonunun inzibati ərazisinin 12131,0 hektar sahəsində Ordubad Milli Parkı yaradılıb. 2009-cu il 25 noyabr tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ordubad Milli Parkının ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək sahəsi 42797,4 hektara çatdırılıb. Həmin sərəncamla milli parkın adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncamlarla 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə isə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılıb. Hazırda muxtar respublikada böyük əraziləri əhatə edən 1 milli park, 1 təbiət qoruğu və 3 yasaqlıq mövcuddur. Ümumilikdə isə muxtar respublika ərazisinin 27 faizi xüsusi mühafizə olunan təbiət əraziləridir.

Muxtar respublikada təbiəti mühafizə tədbirlərinin məqsədyönlülüyü və ardıcıllığı fauna ehtiyatlarının artmasına müsbət təsir göstərib. Bu ərazidə məskunlaşmış nadir və nəsli kəsilmək təhlükəsi olan bitki və heyvan növlərinin qeydiyyatının aparılması və mühafizə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı Kitab" çap edilib.

Məlum olduğu kimi, qlobal ekoloji problemlərin yaranma səbəblərindən biri meşələrin antropogen və digər təsirlərə məruz qalmasıdır. Muxtar respublikamızda təbii meşə ehtiyatları çox deyil. Bu səbəbdən də təbiətin zənginləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır, yeni yaşıllıq zolaqları salınır. Qeyd edək ki, bu tədbirlərin əsası ulu öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə – 1991-1993-cü illərdə qoyulub. Həmin illərdə blokadanın çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində burada yaşıllaşdırma iməciliklərinin keçirilməsinə başlanılıb, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılıb. Həyata keçirilən ekoloji tədbirlər nəticəsində bu gün muxtar respublikanın yaşıllıqlarla örtülü sahəsi ötən əsrin 90-cı illəri ilə müqayisədə 12 dəfə artıb. Bu da əlverişli ekoloji mühitin formalaşmasına və ekoturizmin inkişafına şərait yaradıb. Həyata keçirilən yaşıllaşdırma tədbirləri hər il olduğu kimi, cari ildə də diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, yaz əkin mövsümündə muxtar respublika ərazisində, şəhər, qəsəbə və kəndlərdə, sututarların, su kanallarının ətrafında, magistral yolların kənarlarında, ümumilikdə, 273,8 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib, yeni meyvə bağları salınıb. Yaşıllaşdırma tədbirlərində, ümumilikdə, 196 min 400 meşə və meyvə tingi, həmişəyaşıl ağaclar, bəzək kolları əkilib. Həmçinin nazirlik tərəfindən yaz əkini mövsümündə, ümumilikdə, 65,2 hektar sahədə yaşıllıq zolaqları, meyvə bağları salınıb, 113,6 hektar sahədə ting və toxumla bərpa işləri görülüb.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq nazirliyin tabeliyində olan idarə və müəssisələr tərəfindən 42,5 hektar sahədə meyvə bağları salınıb, 26 min 600 ədəd müxtəlif meyvə tingləri əkilib.

Bu rəqəmləri sadalamaqda məqsədimiz odur ki, davamlı olaraq hər il muxtar respublikada yaz və payız mövsümlərində 500 hektara yaxın sahədə yaşıllıq tədbirləri aparılır, yeni meşə massivləri salınır, mövcud yaşıllıqların qorunub saxlanılması üçün mühüm işlər görülür. Burada əsas məqam ondan ibarətdir ki, qədim diyarda yeni yaşıllıqlar salmaq, onları qoruyub mühafizə etmək digər regionlara nisbətdə çox zəhmət tələb edən işdir. Çünki quru kontinental iqlimə malik muxtar res-



publikada digər ölkələrə və ya regionlara görə su ehtiyatlarının az olması, yayda hava hərarətinin yüksək, qışda isə sərt soyuqla müşahidə olunması, yaşıllıqlara qulluq etməyin, sözün həqiqi mənasında, insandan böyük zəhmət və səbir tələb etməsi danılmazdır. Ancaq görünən odur ki, bütün çətinliklərə baxmayaraq, Naxçıvan özünün yaşıl örtüyü, ətraf mühitinin təmizliyi ilə bura yolu düşənlərin diqqətini cəlb edir. Buna görə də qədim diyar indi zəngin tarixi keçmişi və mədəniyyəti ilə yanaşı, həm də ekoloji təhlükəsizliyin ciddi qorunduğu region kimi tanınır.

**✍ Səbuhi HƏSƏNOV**

# Çörək bol olarsa, basılmaz Vətən

***Ölkəmizdə aqrar sahənin dinamik inkişafında, bütün növ kənd təsərrüfatı məhsullarının artımında muxtar respublikamızın da özünəməxsus payı var. Diyarımızda aqrar bölmənin əhəmiyyəti nəzərə alınaraq bu sahənin inkişafına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına və intensiv amillər hesabına məhsuldarlığın yüksəldilməsinə dövlət tərəfindən daim diqqət və qayğı göstərilir. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatı məhsulları istehsalı ilbəil artır, bazar və yarmarkalarda yerli məhsulların bolluğu hiss olunur.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1sentyabr tarixli Fərmanı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” digər sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafına, ərzaq məhsulları istehsalının artırılmasına, əhalinin ekoloji cəhətdən təmiz və keyfiyyətli məhsullarla təmin olunmasına, sahibkarlıq mühitinin formalaşdırılmasına, kənd adamlarının həyat səviyyəsinin yüksəldilməsinə geniş imkanlar açıb.

Taxıl torpağın yetirdiyi nemətlərin şahı hesab olunur. Bu müqəddəs neməti əvəz edə biləcək ikinci bir nemət yoxdur. Ata-babalarımız həmişə çörək bolluğu yaradılmasına çalışıblar.

Muxtar respublikamızda əkinçiliyin vacib sahəsi olan taxılçılığın inkişafı, intensiv amillər hesabına məhsulun artırılması üçün çox əlverişli, münbit şərait var. Hər şeydən əvvəl suvarma şəbəkələri xeyli genişləndirilib, taxılçılıqda işlədilən yeni texnikalar alınıb gətirilib, emal müəssisələri inşa olunub.

Taxılçılıq muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Kəngərli rayonunun iqtisadiyyatında da aparıcı sahələrdən birini təşkil edir. Odur ki, taxıl əkini sahələri ilbəil genişləndirilir, intensiv texnologiyalara, mütərəqqi becərmə üsullarına üstünlük verilir. Builki mövsümdə rayonda 4 min 364 hektarda taxıl yetişdirilib. Bunun 2 min 314 hektarı buğda, 2 min 50 hektarı isə arpa olub.

Xok rayonun taxılçılıqla məşğul olan ən iri kəndlərindən biridir. Builki mövsümdə kənddə 900 hektardan artıq sahədə taxıl yetişdirilib.



Yetişdirilən məhsul vaxtında tədarük edilib. Hər hektardan 22 sentnerdən çox sarı kəhrəba əldə olunub. Ayrı-ayrı torpaq mülkiyyətçilərinin əldə etdiyi nəticələr daha sevindiricidir. Bunlardan biri də uzun illər kənddə mexanizator işləyən Səttar Babayevdir. O, bu il 9 hektar sahədə məhsul yetişdirib, əkin sahələrindən 25 ton sarı kəhrəba əldə edib. Onun bir hissəsini taxıl qəbulu məntəqəsinə təhvil verib, bir hissəsini isə üyütdürüb.

Səttar deyir ki, təsərrüfat işlərində bütün ailə üzvləri ona yaxından köməklik göstərir. Onların illik qazancı 10 min manatdan aşağı olmur. Odur ki, gələn ilin məhsulu üçün 15 hektarda taxıl əkməyi nəzərdə tutub.

6 min nəfərdən çox sakini olan Xok kəndində mövcud torpaqlardan səmərəli istifadə olunur. Bu torpaqlarda daha çox taxıl əkilib-becərilməsi isə təbiidir. Taxıl ruzi-bərəkətdir. Bu gün kənddə hər bir ailənin öz taxılı, öz çörəyi var. Kənddə 4 lavaşbişirmə sexi fəaliyyət göstərir. Taxılçılar istehsal etdikləri məhsulu lavaşbişirmə sexlərinə verir, yerli taxılın unundan bişirilən çörəklər isə dadlı-tamlı olur. Bundan əlavə, kənddə bir neçə yerdə kürə çörəkləri də bişirilir. Bu çörəklərin isə muxtar respublikamızın ticarət şəbəkələrində daim alıcıları var.

Xok kəndində torpağa baş əyən, alın təri axıdan insanlardan biri də Məcid Məmmədovdur. Təcrübəli əkinçi yaradılan nümunəvi şəraiti, göstərilən dövlət qayğısını yüksək qiymətləndirir. Deyir ki, kəndimizin əhalisi, əsasən, heyvandarlıq və əkinçiliklə məşğul olur. Əkinçilik sahəsində daha çox taxılçılığa maraq göstəririk. Bu isə təsadüfi deyil. Taxıl qiymətli ərzaqdır, əvəzsiz nemətdir. Mən yaradılan şəraitdən istifadə edərək bu il 20 hektar sahədə taxıl yetişdirmişdim.

Yurdçu kəndinin də insanları torpağa, zəhmətə bağlıdırlar. Kəndin yaşıl libası, torpaqlarının barı-bəhəri xeyli artıb. Buradakı bol sulu kəhrizlər, həmçinin təsərrüfat suyunun kifayət qədər olması imkan verir ki, həm həyətyanı sahələri, həm də pay torpaqlarını vaxtlı-vaxtında suvarmaq mümkün olsun. Builki mövsümdə kənddə 128,7 hektar sahədə taxıl yetişdirilib. Hər hektardan 28 sentnerə yaxın sarı kəhrəba əldə olunub. Payız əkininə hazırlıq işləri yekunlaşmaqdadır.

Kənddə taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərindən biri də Vilayət İbrahimovdur.

İşgüzarlığı, zəhmətsevərliyi ilə tanınan təcrübəli əkinçi firavan həyatını məhz zəhmətə bağlılıqla təmin edib. Təcrübəli torpaq mülkiyyətçisi deyir ki, çəkdiyi zəhmətin bəhrəsini görür. 35 ildir, torpaqla, təsərrüfatla məşğul olur. Çəkdiyi zəhmətin sayəsində evinin ruzi-bərəkəti, taxılı, çörəyi daim var. Vilayət deyir ki, bol məhsulumuz torpağımızın bərəkəti həm də bol sulu kəhrizlərimizin hesabınadır. Kəndimizdəki Ağ su kəhrizi əsaslı şəkildə təmir-bərpa olunub, sakinlərin istifadəsinə verilib. Ondan həm içməli, həm də təsərrüfat suyu kimi istifadə edirik.

Aqrar islahatların verdiyi imkanlardır ki, kənddə peşəsindən asılı olmayaraq, hər bir kəs pay torpaqlarından səmərəli şəkildə istifadə edə bilir. İxtisasca müəllim olan Qadir Məmmədov da belələrindən biridir. 63 yaşlı Qadir Məmmədov deyir ki, biz ata-babadan torpağa ana torpaq deyirik. Onların hər ikisi bizim üçün əzizdir, müqəddəsdir. Bu gün torpaqlar kəndlinin özünündür. Peşəsindən asılı olmayaraq, hər bir kəsin pay torpağı var. Bir o qalır ki, öhdəndə olan torpaqdan səmərəli istifadə edəsən. Kəndimizdə daha çox taxılçılığa üstünlük verilir. Çünki taxıl çörəkdir, ruzi-bərəkətdir. Hələ ola təndir çörəyi. Kəndimizdə əvvəllər hər evdə təndirlər qalanardı. Bu gün də təndirdə çörək bişirənlər az deyil.

İlin bu vədəsində kəndli əməyinin, torpağa bağlı insanların çəkdiyi zəhmət bəhrəsini geniş şəkildə verir. Yetişdirilən meyvə və tərəvəzlər bazar və yarmarkalara çıxarılır. Göygöyərti, qarpız, yemiş, şaftalı, alma, sarımsaq və neçə-neçə dərdin dərmanı olan yerli məhsulumuz alıcılar tərəfindən razılıqla qarşılanır. Ən başlıcası isə qızılı sünbüllü taxılın unundan bişirilən çörəklər həm yerli əhali, həm də muxtar respublikamıza gələn qonaqlar tərəfindən yüksək qiymətləndirilir. Onlar Naxçıvan məhsullarının keyfiyyətindən, faydasından həvəslə söz açırlar. Bu məhsulları yetişdirib ərsəyə gətirənlər isə zəhmətkeş kənd adamıdır, münbit torpaqlarımızdır. Odur ki, torpaq hər zaman insan üçün yaşayış tərzini nizamlayan, gün-güzəranı yaxşılaşdıran, firavan həyatı təmin edən amil olmuşdur. Bir şərtlə ki, ona baş əyəsən, qayğısına qalasan, bərəkətini artırasan.

**Məhəmməd FƏRƏCOV**
*Naxçıvan Dövlət Radiosunun baş redaktoru*

***Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun münbit torpaqları burada aqrar sahənin inkişafına geniş imkanlar yaradıb.***

## Qarğıdalı tədarükü davam edir

Son illər regionda əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər bu sahədə daha böyük uğurlar qazanılmasına stimul olub.

Muxtar respublikanın digər bölgələrindən fərqli olaraq Şərur rayonunda həm də qarğıdalı əkilib-becərilməsinə xüsusi önəm verilir. Hər il bölgənin torpaq mülkiyyətçiləri iqtisadi cəhətdən səmərəli olan bu sahədə xeyli gəlir əldə edirlər. Onlar dövlət tərəfindən müxtəlif yardımlarla, yüksək reproduksiyalı toxumlarla təchiz olunurlar.Tədarük edilən məhsulun satılmasında da heç bir çətinlik yoxdur.

Cari ildə də şərurlular öz torpaqlarında bu məhsulun becərilməsi ilə məşğul olublar. Rayonda 1241,6 hektar sahədə qarğıdalı əkini həyata keçirilib. Sahələrə vaxtlı-vaxtında və aqrotexniki qaydada qulluq göstərilib. Bu səbəbdəndir ki, torpaq mülkiyyətçiləri bol məhsul yetişdirməyə nail olublar.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, artıq 241 hektar sahənin məhsulu tədarük edilib, 2314 ton qarğıdalı yığılıb. Orta məhsuldarlıq 96 sentner olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Rayonun Düdəngə, Cəlilkənd, Xanlıqlar, Danyeri, Püsyan və başqa yaşayış məntəqələrində məhsul tədarükü sürətlə davam etdirilir.

Onu da bildirək ki, bölgədə soğan tədarükünə də başlanılıb. Bu il şərurlular 150 hektar sahədə soğan yetişdiriblər. Hər iki sahədən məhsul tədarükünü vaxtında başa çatdırmaq üçün bütün imkanlardan istifadə olunur.

**Xəbərlər şöbəsi**

*İstehsal müəssisələri*

# Daxili bazar yüksəkkeyfiyyətli yerli ət məhsulları ilə təmin olunur

***Muxtar respublikamızda sahibkarlıq mühitinin formalaşması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. İllər öncə ət məhsullarına olan tələbatın az bir hissəsi yerli istehsal hesabına ödənilirdisə, bu gün daxili bazarda yüksəkkeyfiyyətli ət məhsulları istehsal edilir. Belə müəssisələrdən biri – “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti də dövlət qayğısından bəhrələnmişdir. 2013-cü ilin may ayında Babək rayonunun Qoşadizə kəndi ərazisində “Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi” istifadəyə verilmişdir. Müəssisənin yaradılmasında başlıca məqsəd daxili bazarı yüksəkkeyfiyyətli, rəqabətədavamlı ət və ət məhsulları ilə təchiz etməkdən ibarət olub.***

Ötən günlərdə bu müəssisədə olduq. Öyrəndik ki, istehsal sahəsində 14 çeşiddə kolbasa və sosiska istehsal edilir. Keyfiyyətli məhsul istehsalı üçün Türkiyədən, Avstriyadan, İtaliyadan avadanlıqlar alınıb. Müəssisə gündə bir ton ət məhsulu istehsaletmə gücünə malikdir. İstifadə olunan xammalın 80 faizi yerli məhsullardır. Buradakı ət kəsimi və saxlama, kolbasa istehsalı sexlərində, pərakəndə satış mağazasında, ümumilikdə, 25 nəfər çalışır. Müəssisənin daim təzə ətlə təmin edilməsi üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlar ilə əlaqələr yaradılıb. Xammal müxtəlif yaşayış məntəqələrinin sakinlərindən bazar qiymətlərinə uyğun olaraq alınır. Ət normalara uyğun qaydada soyuducu anbarlarda mənfi 18, hazır məhsul isə müsbət 8-10 dərəcəli xüsusi kameralarda saxlanılır. İstehsal olunan bütün məhsullar ölkədaxili sertifikatlarla təmin olunub. “Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi”nin illik istehsal gücü dana əti istehsalı üzrə 1500 ton, çəkilmiş ət 70, quzu əti 800, məhsullar üzrə sümüksüz ət 700, ciyər 80, əla növ kolbasa 180, sardelka 100, sosiska 180, Naxçıvan kolbasası 160 ton, servelat isə 70 kiloqramdır. Müəssisə rəhbəri artıq çiy dönər sifarişləri də qəbul etdiklərini bildirir. Burada gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanın kəsimini həyata keçirmək mümkündür. Müəssisədə müxtəlif dondurucu temperatura malik 8 soyuducu kamera yaradılıb.







Müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. İstehsal olunan məhsulun ayrı-ayrı ticarət obyektlərinə çatdırılması məqsədilə alınmış soyuducu kameralı xüsusi avtomaşınlardan səmərəli istifadə olunur.

Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra satışa buraxılır.

“Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılan ət və ət məhsulları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır. Bu məhsullar əhalinin və dövlət tərəfindən təminatı həyata keçirilən qapalı müəssisələrin tələbatını tamamilə ödəyir. Gələcəkdə burada istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.

Ət məhsulları kompleksində olarkən ayrı-ayrı rayonlardan kəsim üçün iribuynuzlu və xırdabuynuzlu heyvanlar gətirmiş fermer və fərdi sahibkarlardan Sabir Əliyev, Xudayar Vəliyev, Muxtar İbrahimov qeyd etdilər ki, son illər muxtar respublikamıza gətirilən və lizinq yolu ilə sahibkarlara verilən damazlıq düyələr ətlik və südlük cins mal-qaranın artımına səbəb olub. Kəsimə verilən ətlik cins mal-qaranın orta hesabla hər birinin 500-600 kiloqram əti gəlir ki, bu qədər əti hər hansı bir kənd yaşayış məntəqəsində və ya rayon mərkəzində 2-3 günə satıb qurtarmaq qeyri-mümkün idi. Nəticədə, məhsul zay olurdu. Belə bir kompleksin istifadəyə verilməsi ilə problem aradan qaldırılıb, sahibkar istədiyi vaxt təsərrüfatındakı ətlik heyvanları kompleksə təhvil verib ətin müqabilində pulunu alır. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisənin balansında olan xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır. Bundan başqa, müəssisənin nəzdində fəaliyyət göstərən firma mağazasının xidmətlərindən istifadə edən alıcılar da ət məhsulları kompleksinin istehsal və xidmət baxımından yüksək şəraitə malik bir müəssisə olduğunu bildirirlər.

Onu da qeyd edək ki, muxtar respublikamızda istehsal olunan məhsullara təkcə yerli əhali tərəfindən deyil, buraya gələn qonaqlar tərəfindən də böyük maraq göstərilir.

Muxtar respublikada sahibkarlığın inkişafına yaradılan şərait əhalinin ərzaq məhsulları ilə təminatına öz töhfələrini verib. Bu prosesdə haqqında bəhs etdiyimiz istehsal müəssisəsinin də əməyi vardır.

**Ramiyyə ƏKBƏROVA**

*Həkim məsləhəti*

## Qohum nikahları bir çox fəsadlara yol açır

***Yadımdadır, uşaqlıqdan "Əmiqızı ilə əmioğlunun kəbini göydə kəsilib", "A bala, gəl özümüzünkülərdən alaq, ətimizi yesə də, sümüyümüzü çölə atmaz" kimi deyimlərlə çox tez-tez rastlaşırdım. Sən demə, mənim uşaq ağlımla dərk etmədiyim deyimlər üzərində yüz illərdir ki, ailələr qurulub, bu gün də qurulur. Yəni qan qohumları olan əmi, xala, bibi uşaqları evlənirlər. Bəziləri düşünür ki, qohumlar bir-birlərini daha yaxından tanıyırlar. Yaxud da onlar arasında bağlanan nikah var-dövləti nəsildə saxlamaq, ailə fərdləri arasında sevgi və hörməti qorumaq və sair kimi məsələlərə də xidmət edir. Lakin bəzən belə hallarda ailələrdə konflikt yaranır ki, bu da möhkəmləndirməyə çalışdıqları ailə bağlarını çürüdür, nəticədə, münasibətlər gərginləşir. Əminəm ki, çoxlarımız belə hadisələrlə rastlaşmışıq və təəssüf ki, bu hallara bu gün yenə də rast gəlmək olur.***

Qohum evliliyi, xüsusilə ən yaxın qohumlar arasında evlilik birmənalı şəkildə ətraflı təhlil olunmur. Əgər bir xalaoğlu öz xalaqızısını sevirsə, bu cür sevgi əsasında qurulan evliliyə qarşı münasibətə cəmiyyət loyal yanaşır. Ancaq məsələyə tibbi baxımdan yanaşsaq, belə cütlüklərin izdivacı çox hallarda xəstə övladların dünyaya gəlməsinə səbəb olur. Tibb işçiləri həyəcan təbili çalırlar ki, qohumla evlənən insanlar öncədən müəyyən testlərlə yoxlanmalı, sonra evlənmək qərarı verməlidirlər. Onlar bildirirlər ki, yaxın qohumların evliliyindən dünyaya gələn uşaqlarda müəyyən fiziki və əqli məhdudiyyətlərin olması ehtimalı var. Bəziləri ya gələcəkdə bu səbəbdən hansı probemlərlə qarşılaşacaqlarından xəbərsizdirlər, ya da qohumluq əlaqələrinə o qədər bağlıdırlar ki, bunu nəzərə almayıb yenə də qohum nikahını dəstəkləyirlər.

Məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayevlə görüşüb ona bir neçə sual ünvanladıq:

***– İbrahim həkim, qanqohumluğunun zərərli nəticələri barədə nə deyə bilərsiniz?***

– Azərbaycan xalqının ailə modeli nəinki Şərqdə, həm də Qərbdə unikal hesab olunan ailə modelidir. Yəni buraya ailədaxili münasibətlər, böyüklərə hörmət, ehtiram və sair kimi ənənələr daxildir ki, bütün bunlar xalqın milli və mənəvi dəyərlərinə söykənir. Lakin Azərbaycan ailəsində hələ də bəzi problemlər qalmaqdadır. Bu gün də elə ailələr var ki, onlar qanqohumluğu nikahlarına və erkən evliliklərə üstünlük verirlər. Lakin bilmirlər ki, belə nikahlar nəticəsində hüceyrələrdə (xromosomlarda) gedən mutasion dəyişikliklər döldə müxtəlif patologiyaların əmələ gəlməsinə səbəb olur. Belə evliliklər irsi-genetik xəstəliklərin özünü daha tez büruzə verməsində əsas amillərdən biridir.

Qohumla evlənmənin zərərli nəticələri insanları daim düşündürmüşdür. Onlar həmişə yaxın qohumlardan doğulan uşaqların çoxunun müxtəlif xəstəliklərə – qan xəstəliklərinə, anadangəlmə eybəcərliklərə, fiziki və əqli cəhətdən gerilik kimi hallara tutulduqlarını görmüşlər. Genetik tədqiqatlar təsdiq edir ki, qan qohumlarının evlənmələri nəticəsində hemofiliya, talassemiya, daun xəstəlikləri, gözün rəng seçmə qüsuru (daltonizm), qurdağız, dovşandodaq, uşaq serebral iflici və sair irsi-genetik xəstəliklərin əmələgəlmə riski yüksək olur.

Məsələn, hemofiliya (qanın laxtalanmaması) xəstəliyinin daşıyıcı geni anadan qız övladına ötürülürsə, bu qız da anası kimi həmin xəstəliyin daşıyıcısı olur, lakin həmin qızda xəstəlik özünü büruzə vermir, xəstəliyin daşıyıcı geni gizli qalır. Bu gen anadan oğlan övladına keçdikdə isə fəaliyyətini artırır və hemofiliya xəstəliyi yaranır. Belə uşaqlarda kiçik travmalar, diş çəkilməsi, hər hansı bir iynənin vurulması qanaxmalara səbəb olur, bəzən isə daha ağır nəticələr baş verir. Beləliklə, qan qohumlarının evlənməsindən doğulan bacı və qardaş, hüceyrələrin mutasiyası (dəyişkənliyi) nəticəsində irsi xəstəliyin gizli daşıyıcısı kimi ola bilir və onların hər biri ayrılıqda ailə qurduqda, uşaqlarında irsi xəstəliyi daşıyan genlər aktivləşərək ağıldankəmlikdən başlamış bir çox irsi xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

Avropada əmioğlu-əmiqızı arasında nikahlardan doğulan uşaqlardan 15 faizində, dayıoğlu-bibiqızı nikahlarından doğulan uşaqların 13 faizində ağıldankəmlik, daun xəstəliyi və digər irsi-genetik xəstəliklər müşahidə edilir. Belə xəstəliklərin əmələ gəlməsinin səbəblərindən biri də erkən evlilik və ya yeniyetmə evliliyidir. Bu evliliyin gənc qadının orqanizminə mənfi təsirləri ona psixoemosional təsirlərdən başlayır. Yeniyetmə orqanizminin fiziki və hormonal inkişafı tamamlanmadığından hamiləliklərin vaxtından əvvəl pozulması, erkən toksikozların əmələ gəlməsi, dölün bətndaxili hipoksiyası (oksigen çatışmazlığı) və sair kimi hallar gənc ananın sinir-psixoloji vəziyyətini pisləşdirir. Əksər hallarda belə analardan doğulacaq uşaqlarda irsi-genetik xəstəliklərin olması riski yüksəlir. Uşaq doğularkən isə ananın və uşağın doğuş zədələri çox olur. Beləliklə, yeniyetmə hamilə qadınlar risk qruplu qadınlar kimi qeydiyyata alınmalı, tez-tez sahə mama-ginekoloqları tərəfindən müayinə olunmalı, onların ultrasəs, ürəyin kardioqramı və digər müayinələri təşkil edilməlidir.

Belə nikahların yaratdığı fəsadlar bunlarla bitmir. Onlardan biri otozomal resesif xəstəlikləri adlanır. Burada genetik keçmənin özəllikləri isə odur ki, ilk növbədə, cinsiyyət fərqi yoxdur. Otozomal resesif xəstəliklər hər nəsildə özünü göstərməz. Sağlam ata-anadan doğulan uşaq xəstədirsə, həm ana, həm də ata daşıyıcıdır. Xəstə adam ilə genotipik olaraq tamamilə sağlam şəxs evlənərsə, uşaqların hamısı daşıyıcı olacaq. Xəstə şəxslə daşıyıcı şəxs evlənərsə, uşaqlarının yarısı xəstə, yarısı daşıyıcı olacaq. Daşıyıcılar fenotipik olaraq sağlam olsalar da, xəstə genləri sonrakı nəsillərə ötürmək vəzifəsini yerinə yetirirlər. Xəstə bir uşağın qardaş və bacılarında xəstəliyin yaranma riski 25 faizdir və ailə bu təhlükənin hər hamiləlik üçün eyni olduğunu yaxşı dərk etməlidir. Yəni ailədə bir xəstə uşaq olduğu üçün bu risk azalmış deyil.

Bu xəstəliklərdən ən çox rast gəlinənlərdən biri kistik fibrozistdir. Kistik fibrozistdə toxumalarda pozulma və müxtəlif problemlər yaranır. Belə xəstələrin yaşama müddəti orta hesabla 27 ildir. Ən geniş yayılan talassemiya adlı qan xəstəliyidir. O, hemoqlobindəki problemlə bağlı yaranır. Etnik qruplarda talassemiya nisbəti 3-5 faizdir. Böyümə geri qalır və ürək çatışmazlığı yaranır. Müalicə ilə yaşama müddəti 40 yaşa qədər uzadıla bilər.

Kənd əhalisi qanqohumluğu nikahlarına daha çox haqq qazandırır. Lakin bu kimi nikahlar gələcək nəslimizin sağlamlığını sual altında qoyur.

Yaxın qohumlar arasında bağlanan nikahlar nəticəsində uşağın xəstə doğulması riski daha da artır. Beləliklə, nikaha daxil olmuş qan qohumlarının genetik xəstəliklərə yolaçma riski olduqca yüksəkdir və dünya əhalisinin bir qismi bu problemdən əziyyət çəkir. Gələcək ailə cəmiyyət qarşısında müəyyən məsuliyyət daşıyır. Gənclər ailə həyatı qurarkən yalnız özləri barədə deyil, dünyaya gətirəcəkləri övladları haqqında da fikirləşməlidirlər.

***– Bu gün muxtar respublikamızda bu istiqamətdə hansı işlər görülür?***

– Son vaxtlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən irsi-genetik xəstəliklərin azaldılması istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə muxtar respublikanın məktəblərində qanqohumluğu və erkən nikahların zərərli nəticələrinə dair maarifləndirici seminarlar aparılır, bu sahədə səhiyyə maarifi işləri gücləndirilir.

Uşaqlar hər bir millətin gələcəyidir. Ona görə də muxtar respublikamızda uşaqların sağlam, milli və mənəvi dəyərlər əsasında gələcəyə hazırlanması diqqət mərkəzindədir.

Son olaraq bunu deyək ki, ənənəvi cəmiyyətlərdə bəhs olunan evliliklərə qarşı münasibət müsbət olsa da, modern cəmiyyətlərdə bu, qəbul edilmir. Modern cəmiyyətlərdə qohum evliliyi, əgər arada sevgi yoxdursa, birmənalı şəkildə rədd edilir. Onlarda nikaha daxil olmadan öncə tibbi müayinələr məsələsi gündəmə gəlir ki, bu həm qohum evliliyi, həm də qeyri-evlilikdə sağlam övladın dünyaya gəlməsinin təmin olunması məqsədi daşıyır.

Bəzi insanlar sağlamlıq barədə yalnız dünyaya xəstə uşaq gətirdikdə və ya ümumiyyətlə, hər hansı bir problemlə üzləşdikdə fikirləşirlər. Sağlam ailənin formalaşması kimi vacib bir prosesdə gənclərin ailə həyatı qurmazdan əvvəl tibbi müayinədən keçməsi, dünyaya göz açan uşaqların irsi və ya anadangəlmə xəstəliklərlə doğulmasının qarşısının alınması və ailələrin rahat həyat sürmələri üçün atılan addımların başlanğıcıdır. Amma hər bir halda sevgi və ənənələrin gücünün qarşısında müqavimət göstərmək çox çətin olsa da, hər hansı bir problemi öncədən bilib qarşısını almaq onu həll etməkdən daha asandır.

✍ **Fatma BABAYEVA**

***XVI-XVII əsrlərdə Azərbaycanın bir çox bölgəsində, xüsusilə Naxçıvanda əhali arasında geniş yayılmış, öz zəngin görünüşüylə gözoxşayan tikmə üsullarından biri də güləbətin tikmə üsuludur.***

*Xalq yaradıcılığı*

## Zəngin görünüşüylə gözoxşayan güləbətin tikmə sənəti



Güləbətin tikmə üsulu bahalı və ağır, sıx toxunuşlu parça üzərində tətbiq olunur. Parça üzərində qızılı və gümüşü saplar həm tikilmə texnikası, həm də gözoxşayan naxış oriyentallığıyla insanda estetik zövq yaradır. Bu tikmə üçün seçilən parça növü adətən mahud və ya tirmə olurdu. Güləbətin tikmə üçün saplar fərqliliyi ilə seçilir, bu saplarla işləmək xüsusi sənətkarlıq tələb edir. Saplar əyirmə və eşmə nəticəsində alınır, qızılı və gümüşü sapların özəyi ipək, adi iplik və kətan, yalnız üst təbəqəsi qızılı və gümüşü olur.

Güləbətin tikmə növünün bir neçə üsulu vardır. Doldurma tikmə sənəti muxtar respublikamızda daha çox yayıldığından, bu özəllik güləbətində də öz əksini tapır. Çünki ən geniş yayılmış üsul sadə və qabarıq doldurma üsuludur. Güləbətin tikmənin əsas xüsusiyyəti onun böyük və siluetli olmasıdır.

Həmin dövrdə, əsasən, milli geyimlərdə, xüsusən Naxçıvan xanımlarının geyindiyi üst geyimlərində və qadın baş geyimi olan araqçınlarda daha çox təsadüf olunur. Bu da keçmişdən xanımlarımızın yüksək zövqə sahib olduğundan xəbər verir.

Qədimdə Naxçıvanda hər bir nişanlı qız öz cehizliyi üçün güləbətin tikmə üsulu ilə işlənmiş müəyyən əşyaları əl əməyi, göz nuru ilə bəzəyirdi (örtüklər, yastıqlar, daraqqabı, canamazlar və sair).

Güləbətin tikmə sənəti nümunələrini orta əsrlərdə feodallara vergi ödəyənlər xərac əvəzinə də verirdilər. Bu da həmin sənət nümunələrinin nə qədər zəngin və qiymətli olmasından xəbər verir. Artıq bu sənət növü bütün el sənəti nümunələri kimi müasir dövrümüzdə də tətbiq edilməkdədir. Bunlar yüz illər boyu cilalana-cilalana dövrümüzə qədər gəlib çatıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikada belə dəyərlərin qorunmasına, təbliği və gələcək nəsillərə ötürülməsinə böyük dövlət qayğısının parlaq ifadəsidir. Sərəncama əsasən müxtəlif tədbirlərin keçirilməsi davamlı xarakter alıb. Belə tədbirlər unudulmaqda olan folklor nümunələrimizin, milli adət-ənənələrimizin, qədim sənətlərimizin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynayır. Muxtar respublikamızın bütün bölgələrində xalq yaradıcılığının müxtəlif sahələrinə yeni həyat verilir. Xalq sənətinin və yaradıcılığının ağacişləmə, xalçaçılıq, papaqçılıq, dülgərlik, dəmirçilik, toxuculuq, zərgərlik, misgərlik sahələri ilə yanaşı, tikmə sənəti də yaşadılır.

**Fatma ŞAHBAZOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## Şahmatçılar arasında interaktiv məşğələ



Naxçıvanda şahmatın inkişafına xüsusi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, muxtar respublikanın şəhər və rayonlarında şahmat məktəbləri tikilərək istifadəyə verilib, həmin məktəblərin maddi-texniki bazası gücləndirilib. Eyni zamanda müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş şahmat məktəblərində distant və interaktiv təhsilin təşkili üçün hər cür şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin həlli istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi Şahmat Federasiyası mütəmadi olaraq şahmat məşğələləri keçirir.

Dünən Naxçıvan Şahmat Mərkəzində növbəti məşğələ təşkil olunub və bu məşğələni beynəlxalq hakim Emin Hacıyev tədris edib. Məşğələ 200-dən artıq təhsil müəssisəsində elektron lövhədən interaktiv formada izlənilib. Şəhər və rayon şahmat məktəbləri arasında innovativ məşğələni isə 160-a yaxın şahmatçı elektron lövhə vasitəsilə izləyib. Məşğələ zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil olunan və qabaqcıl şahmat müəllimlərinin tədris etdiyi bu məşğələlərin keçirilməsində məqsəd şahmatın kütləviliyinə nail olmaq, şagirdlərin bu sahəyə meyil və maraqlarını daha da artırmaq, qarşılıqlı fikir mübadiləsi aparmaqla şahmatçılar arasında rəqabət mühitini formalaşdırmaqdır.

✍ **Ceyhun MƏMMƏDOV**


## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti sağlamlıq imkanları məhdud vətəndaşları Naxçıvan Regional Peşə Tədris Mərkəzində ağac üzərində oyma peşəsi üzrə kurs keçməyə dəvət edir.

Ağac üzərində oyma peşə kursunun tədris müddəti 2 aydır.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2017-ci il oktyabr ayının 1-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Əlillik vəsiqəsinin surəti.*

***Əlaqə telefonu: 545-42-12***

### İtmişdir

Allahverdiyev Qadir Qəmbəralı oğlunun adına Culfa rayonunun Göydərə kəndində yerləşən torpaq sahəsinin torpağa mülkiyyət hüququna dair JN-61 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Əroğlu Ərtanın adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 749